# İcma: A.Mirzoyanın Azərbaycanda "erməni mədəni irsi"nin guya təhlükə altında olması barədə bəyanatını kəskin şəkildə qınayırıq

**"Biz Qərbi Azərbaycan İcması olaraq Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın Qədim Sivilizasiyalar Forumunda verdiyi bəyanatı kəskin şəkildə qınayır və rədd edirik. Nazir Mirzoyan həmin tədbirdə Azərbaycanda "erməni mədəni irsi"nin guya təhlükə altında olduğunu iddia edərək, təxribat xarakterli bəyanat səsləndirib".**

AZƏRTAC xəbər verir ki, bu fikirlər Qərbi Azərbaycan İcmasının bəyanatında yer alıb. Bəyanatda həmçinin qeyd olunur: "Böhtanla dolu bu bəyanat həm də Ermənistanın Azərbaycana qarşı ərazi iddialarını hələ də davam etdirdiyini göstərir. Ermənistan XİN başçısının "Dağlıq Qarabağ" ifadəsini işlətməsi ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü ancaq sözdə tanıdığını nümayiş etdirir.

Ermənistanın həm öz ərazisində, həm də vaxtilə işğal etdiyi Azərbaycan torpaqlarında Azərbaycan mədəni irsini tamamilə və sistematik şəkildə məhv etdiyini nəzərə alsaq, bu ölkənin hazırda mədəni irs məsələsi ətrafında spekulyasiya aparması riyakarlığın təzahürüdür.

Ermənistan XİN rəhbərinin UNESCO missiyasının göndərilməsi çağırışına gəlincə, vurğulamalıyıq ki, belə bir missiya Azərbaycana deyil, məhz Ermənistana göndərilməlidir. Təəssüf ki, Ermənistanın imtinası səbəbindən hələ də bu ölkəyə UNESCO missiyası baş tutmayıb.

Biz Ermənistandan Azərbaycanın ərazi bütövlüyünə hörmət göstərməyi, bu ölkədə Azərbaycan xalqının mədəni irsinin vəziyyətinin qiymətləndirilməsi üçün UNESCO missiyasının oraya göndərilməsinə razılıq verməyi, dağıdılmış Azərbaycan abidələrinin bərpası, qorunması və mühafizəsi üçün zəruri tədbirlər görməyi tələb edirik".

Azərbaycan.- 2024.- 27 sentyabr (№211).- S.13.